# İbtidai siniflərdə vətənpərvərlik tərbiyəsinin əsas xüsusiyyətləri

**Zəminə Hacıyeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** zhaciyeva@beu.edu.az

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** vətənpərvərlik, məhəbbət, vətən, dövlət, atribut, əxlaq, tərbiyə
**Ключевые слова:** патриотизм, любовь, родина, государство, атрибут, мораль, воспитание
**Key words:** patriotism, fondness, motherland, goverment, attribute, morals, nurture

Vətənpərvərlik hissi qədim tarixə malikdir. Ən qədim dövrdə belə insanlar mağara mühitində yaşasa belə onlar öz mağarasının təəssübünü çəkmiş, onu yad təsirlərdən qorumuşlar. Məncə, vətənə məhəbbət bu dövrdən başlamışdır. Lakin dövlətin yaranması ilə bu hisslər möhkəmlənmiş və əqidəyə çevrilir.

Dövlətlərin yaranması və ictimai-siyasi formasiyalar dəyişdikcə onda öz quruluşuna xidmətlə əlaqədar mahiyyət dəyişiklikləri baş vermişdir, lakin vəzifə dəyişməmiş, insanlar öz yaşadığı komasını, evini, kəndini, şəhərini və ümumilikdə, ölkəsini sevərək qoruması bir borc, vəzifə kimi qarşıya çıxmışdır. Bu da vətənpərvərlik tərbiyəsinin vəzifəsi kimi izah olunur. Pedaqoji prinsiplər baxımından vətənpərvərlik əxlaq tərbiyəsinin tərkib hissəsidir. Əxlaq tərbiyəsi "adamın özünə, başqalarına, əməyə, vətənə, ictimai quruluşa, dövlətə və s. olan münasibətlərin şüurlu surətdə formalaşması"nı nəzərdə tutur. Vətənpərvərlik tərbiyəsi də bu məsələ əsasında inkişaf edir. Bunun üçün şagirdlərin hərtərəfli və ahəngdar inkişafına diqqət artırılmalı, vətənpərvərlik hissini aşılamaq üçün zəmin hazırlanmalıdır. Birinci növbədə uşaqlarda vətəndaşlıq borcunun tərbiyə edilməsi vacibdir.

Professor Əjdər Ağayev "Məktəblilərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi" adlı əsərində bu fikirlərə diqqəti yönəldir: "...vətəndaşlıq borcu və məsuliyyət - yüksək insani keyfiyyətdir".

Vətəndaşlıq, vətən borcu şagirdlərdə kiçik yaşlarından, ailədən başlayır. Uşaq öz ata-anasına, evə, yaxın adamlarına, qohumlarına məhəbbəti öyrənir, onun qorunmasında, müdafiəsində iştirak edir. Bu keyfiyyətlər uşağın məktəb yaşlarında vətən borcu, vətəni sevmək və qorumaq, milli iftixar və s. hissləri aşılamaq elmi-nəzəri cəhətdən müəllimlərin rəhbərliyi ilə həyata keçirilir.

Digər əxlaqi hisslər kimi borc hissi insanın cəmiyyət, kollektiv qarşısında öz vəzifəsini dərk etməsidir. Borc hissi insanda formalaşdıqca, o, öz vətəndaşlıq vəzifəsini, Vətən, kollektiv qarşısında borcunu dərk etməklə kifayətlənmir, eyni zamanda bunlara qəlbən yaşanır və öz işinə, hərəkətinə tələbkarlıqla yanaşır. İnsan öz borcunu yerinə yetirməklə daxilən rahatlıq hiss edir, işindən, davranışından razı qalır.

Görkəmli Azərbaycan alimi Ziyəddin Göyüşov "Əxlaqi sərvətlər" əsərində borcunu yerinə yetirməsindən danışarkən göstərmişdir ki, insan ailə, kollektiv, sinif, millət qarşısında, cəmiyyət qarşısında müxtəlif vəzifələr daşıyır. Əgər bu vəzifələri layiqincə yerinə yetirirsə təqdirəlayiqdir, fəzilətli sayılır, yerinə yetirmirsə, əksinə pislənir, əxlaqca qüsurlu hesab edilir. Vətənpərvərlik tərbiyəsində "əsil iş borcun tələbləri ilə insanın özünün daxili aləminin tələblərini eyniləşdirməkdən ibarətdir".

Məktəbyanı təcrübə sahəsində, ictimai işlərdə görüləcək işlər üçün uşaqlara verilən tapşırıqları bəziləri dərhal, bəziləri müəyyən andan sonra qəbul edir.

Respublikanın ümumtəhsil məktəblərində tərbiyə işi bir qayda olaraq ayrı-ayrı fənlərin tədrisi zamanı mövzunun tərbiyə imkanlarından istifadə edilərək həyata keçirilir və şagirdlərə vətənpərvərlik hissi aşılanır.

Tərbiyə işi eyni zamanda məktəbin tarix-diyarşünaslıq muzey və guşələrinin yaradılması, muzeylərə ekskursiya, vətən şəhidlərinə abidələrin ucaldılması, hərbi-idman oyunlarının keçirilməsi vətənin qəhrəman, ziyalı, əmək adamları ilə görüşləri və s. tədbirlərin icrası zamanı həyata keçirilir.

Bundan başqa şagirdə özünün yaradıcılığı, valideyn nümunəsi və ictimaiyyətin təsir vasitələri və s. yollarla da vətənpərvərlik hissi aşılanır.

Vətənpərvərlik tərbiyəsinin nəzəri və pedaqoji əsaslarını göstərərkən prof. Ə.Ağayevin fikrinə istinadən deyə bilərik ki, respublikamızın bütün ümumtəhsil məktəblərinə bu dövlət əhəmiyyətli tərbiyə hissinin aşılanması məqsədi ilə uşaqları nəzəri cəhətdən hazırlamaq və bir çox pedaqoji üsullardan istifadə etmək lazımdır.

Uşaq və yeniyetməyə vətəndaş olduğunu dərk etdirmək, vətəndaşlıq vüqarı təlqin etmək, vətəndaş kimi üzərinə düşən vəzifəni başa salmaq lazımdır. Bu böyük məsələ birinci növbədə təhsil mərkəzi sayılan məktəbdən çox asılıdır.

Məktəbin I sinifdən başlayaraq uşaqlara vətən, vətəndaşlıq haqqında məlumat verilməlidir. Nəticə etibarı ilə uşaqda vətənpərvərlik hissləri yaranmağa başlayır. Lakin təbiidir ki, bütün siniflərdə qavrama eyni cür ola bilməz. Çünki bu, uşağın bilik, qavrama səviyyəsindən, dünyagörüşündən, yaşından çox asılıdır. Ona görə də I-IV siniflərdə aparılan vətənpərvərlik tərbiyəsi digər siniflərinkindən fərqlənir.

Məlumdur ki, I sinfə gələnə qədər uşaq uşaq bağçasına gedir, radio, televizor verilişi görür, eşidir. Artıq 20 ildən çoxdur ki, vətən təhlükədədir. Qarabağ problemi vətəndaşlıq, vətənpərvərlik tərbiyəsini diqqət mərkəzinə çəkmişdir. Məktəbəqədər yaşlı uşaqlar müəyyən qədər biliyə, dünyagörüşə az da olsa malikdirlər. Məktəbə gəldikdən sonra uşaq vətən, tarixi günlər və bayramlar, mərasimlər, insanın fəaliyyəti, təbiət hadisələri haqqında və s. məlumat alırlar.

Azərbaycan, Vətən, müstəqillik, qəhrəmanlar, şəhidlər, düşmənlər, köçkünlük, evsizlik, düşmənin döyüş maşınlarının atəşi və s. haqqında emosional şəkildə dərs deyən müəllimlərdən təhsillənir, vətən anlayışını qəbul edir.

Sinifdən-sinfə keçdikcə dərslikdə tərbiyəvi cəhətdən qiymətli olan nümunəvi materialları öyrəndikcə - qəhrəmanların vətənpərvərliyini, vətənin gözəlliyini, onun müstəqilliyi uğrunda mübarizələrin həyatını öyrəndikcə, ataların keçdiyi yolu öyrənə-öyrənə vətəndaşlıq dərsi alaraq, Vətən, vətəndaşlıq borcunu dərindən başa düşərək insanın həyatda yeri və rolunu müəyyənləşdirirlər.

Tarix və diyarşünaslıq materiallarının öyrədilməsində vətənpərvərlik tərbiyəsi böyük rol oynayır. Şagirdlərə Azərbaycanın təbii-coğrafi mühiti, onun gözəlliyi, sərvətləri barədə verilən məlumatlarla şifahi və ekskursiya vasitəsilə təsir, Azərbaycan xalqının inkişaf prosesinin izahı, insanlar arasında ictimai-siyasi fəallıq, Azərbaycanın müstəqil dövlət yaratmasında diplomatik səylər, şəxsiyyətin buna təsiri, müstəqil dövlətin özünün dünya əhəmiyyətli atributları, qədim tarixə, dini adət-ənənəsinə malik, tarix və mədəniyyət abidələrinin yaradılması, milli bayramların yad edilməsi, vətənin müdafiəsinə qalxmış xalq qəhrəmanları, milli ordunun təşkili, vətən uğrunda canını qurban verən şəhidlərin həyat və fəaliyyəti, onların qəhrəmanlıq nümunələri, Azərbaycan xalqını qəhrəmanlığa səsləyən musiqi

və etnoqrafiyası və ən nəhayət Azərbaycan təhsil sisteminin böyük bəşəri nailiyyətlərinin öyrədilməsi sözün əsil mənasında vətənpərvərlik tərbiyəsi üçün dəyərli vasitələrdir, pedaqoji əsasdır.

Azərbaycan qədim tarixə malik bir ölkədir. Hər bir ölkə kimi onun da özünü tanıtmağa nişanları-müasir sözlə desək, dövlət rəmzləri vardır. Dövlət rəmzləri vətənpərvərlik tərbiyəsinin mənbəyidir. Bu rəmzləri tanıtmaq, onların tarixi haqqında məlumat vermək vətənpərvərlik tərbiyəsi zamanı əsas vasitələrdən biridir.

Əsası hələ 1904-1905-ci illərdə görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadə tərəfindən "Türkləşmək, islamlaşmaq və avropalaşmaq" şəklində irəli sürülən bu şüar XX əsrin əvvəllərində türk aləminin hər tərəfindən geniş yayılmışdır. M.Ə.Rəsulzadə də bu fikri dəstəkləyərək yazırdı: "Sağlam, mətn və oynaq məfkurəli bir millət vücuduna çalışmaq istəsək mütləq üç əsasa sarılmalıyıq - türkləşmək islamlaşmaq və müasirləşmək".

1918-ci ilin may ayının 28-də öz müstəqilliyini elan edən Azərbaycan Cümhuriyyəti öz bayrağını məhz bu əsasda qurdu. Bayraqda göy rəng türkçülüyü, qırmızı müasirliyi, yaşıl isə islam ideologiyasını ifadə edir. Bayraqdakı 8 guşəli ulduzun təsviri isə ana vətənimiz odlar yurdunu bütün bəşəriyyətdə cənnətin məskəni olduğunun bir rəmzi kimi öz simvolunu tapmışdır. XX əsrin sonlarında Azərbaycan öz müstəqilliyini yenidən əldə etdikdən sonra üç rəngli bayrağımızı yenidən dalğalandırdı.

Digər dövlət rəmzlərimiz — dövlət himni və dövlət gerbi AXC dövründə layihə şəklində yarımçıq qalmışdır. Müstəqillik əldə etdikdən sonra müasir gerbimiz təsdiq olundu. Azərbaycan Respublikasının Dövlət Gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üzərində Azərbaycan Respublikasını Dövlət Bayrağının rəngləri fonunda səkkiz guşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl sünbüllər isə sarı rəngdədir. Qalxan azərbaycanlıların Şərq xalqlarından biri, Azərbaycanın isə Şərq dövləti kimi özünü müdafiə qüvvələrinə malik olduğunu, qalxanın üzərindəki dairəvi üç rəng bayrağımızdakı simvolları, səkkiz guşəli ulduz ədəbiyyat rəmzi olan günəşi, alov "Odlar Yurdu"nu, palıd budaqları milli hərbi qüdrətimizi, sünbül vətənimizin bolluğunu çörəyə olan müqəddəs münasibəti günəşin ağ rəngdə verilməsi isə Azərbaycan dövlətinin sülhsevərliyini, əmin-amanlıq tərəfdarı olduğunu bildirməyə xidmət edir. Qalxandakı səkkiz düymə isə günəşin səkkiz süasına müvafiq olaraq verilmişdir və xüsusi funksiya daşımır.

**Məqalənin aktuallığı.** Ölkəmizin dünyaya inteqrasiya etdiyi indiki dövrdə vətənpərvərlik tərbiyəsinin inkişaf xüsusiyyətlərinin araşdırılması xüsusi aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə kiçik məktəblilərdə mənəvi tərbiyənin tərkib hissəsi kimi vətənpərvərlik tərbiyəsinin inkişaf istiqamətləri öz əksini tapmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ibtidai siniflər üzrə çalışan müəllimlər, tələbələr və magistrantlar faydalana bilərlər.

## Ədəbiyyat

1. T.S. Paşayev. Tarix-diyarşünaslıq materialları əsasında gənc nəslin vətənpərvərlik tərbiyəsi. Bakı: Nərgiz, 2002.

2. M.H. Ağayev. Humanitar fənlərin tədrisi prosesində məktəblilərin vətənpərvərlik tərbiyəsi. Bakı: Müəllim, 2004

3. G.V. Sultanova. Kiçik yaşlı məktəblilərdə mənəvi keyfiyyətlərin inkişaf etdirmə yolları. Bakı: Mütərcim, 2012

4. A. Məmmədova. Kiçik yaşlı məktəblilərin milli ruhda tərbiyəsi. Bakı: Nasir, 2012

**З. Гаджиева**

## Основные особенности патриотической воспитании в начальных классах


## Резюме

Патриотическое чувство имеет большую историю. В древнейшем мире люди живущим в первобытном обществе были очень пристрастным к своим близким, охраняя своих пещеры от чужих влиянии. По-моему любовь к родине началось с того времени. В современном мире патриотическое воспитание иметь большую актуальности. Патриотическое воспитание как и моральное воспитание иметь важное значение в формировании личности школьников.


**Z. Hajiyeva**

## The main features of motherland nurture in primary school


## Summary

Patriotism is an old feeling. In an ancient period when the people lived in caves, they tried to protect their place, their home and relatives from others attack. Patriotism attitude started in those ages. In the modern time Nurture of motherland has essential effects on societies. It is part of moral, good attitude and it’s necessary for education and nurture of primary school student.


**Redaksiyaya daxil olub:** 12.03.2019